**Əvəz İslam oğlu BAYRAMOV**
i. e. d., professor, Azərbaycan Dövlət İqtisad Universiteti

**Vüqar Avtandil oğlu BAYRAMOV**
i. f. d., dosent, Azərbaycan Milli Aviasiya Akademiyası

# İQTİSADİ DAVRANIŞ: RASİONAL "ROMANTIZM"

**Xülasə**

**Tədqiqatın məqsədi** – Nəzəri – konseptual baxışlarda qabarıq şəkildə müşahidə edilən "boşluqlardan" biri iqtisadi davranış və onun rasional xarakteristikası ilə bağlı birmənalılığın yoxluğudur. Məqalədə əsas məqsəd iqtisadi davranışın rasional tutumunun birmənalılıq prizmasından konseptual – nəzəri təsvirini verməkdən ibarətdir.

**Tədqiqatın metodu** - Tədqiqatın metodikası struktur – sistemli, sistemli – funksional və ehtimallı – deduktiv yanaşmalardan tərtib olunmuşdur.

**Tədqiqatın nəticələri** - Tədqiqatın nəticələri araşdırılan problemin həlli mümkünlüyünün "xalis" iqtisadi yanaşmanın "mütləqliyinə" son verilməsi və elmlərarası sintezin zəruriliyinin təsbiti ilə determinə olunduğunu ortalığa qoyur.

**Açar sözləri:** rasionalizm, irrasionalizm, davranış, təsvir, fayda, nəzəriyyə, model.

**UOT:** 338
**JEL:** F-52
**DOI:** https://doi.org/ 10.54414/KTCX6460

**Giriş**

Müasir iqtisad elmi, nəzəri – metodoloji prizmadan çoxlu sayda, fərqli məzmun daşıyan konseptual baxışlarla "zənginləşməkdə" davam etməklə yanaşı – "meynstrimi" (neoklassikanı) hakim mövqedə saxlamaqdadır. Bu aspektdən elmi baxışın ana xətti cəmiyyətin tələbatlarının ödənilməsi olaraq qalmaqdadır... Və, bu vəzifəni həyata keçirməyin yolu – faydanın (mənfəətin, gəlirin, istehlakın və s.) maksimumlaşdırılmasından keçir. Eyni zamanda, "yeganə yol" inamı – demək olar ki, əksər dünya ölkələrinin sosio – iqtisadi siyasətinin fundamental prinsipinə çevrilmişdir. Doğrudur, industrial təsərrüfat tipinin təşəkkülü prosesinin hələ başa çatmadığı yaxud aqrar – industrial təsərrüfata sahib olan ölkələrin bir çoxunda mübadilənin ekvivalentliyi konsepsiyası və onun ticarət uduşu prinsipi yer almaqdadır. Bu ölkələr – birmənalı olaraq, dünyanın geoiqtisadi arxitekturasında "əyalət" statusu daşıyanlardır.

Bir sözlə, dünya iqtisadiyyatı – bütün parametrlər üzrə kardinal dəyişiklik mərhələsinə qədəm qoysa da, gerçəkliyin (iqtisadi) nəzəri təsvirinin adekvatlığı problemi " qibtə" ediləcək inadla öz aktuallığını qoruyub saxlamaqdadır.

"Davranış iqtisadiyyatı" adlı yeni nəzəri cərəyanın formalaşmasına və iqtisadi gerçəkliyə yanaşma tərzinin "birölçülü" məntiqinin hakimi – mütləqliyinə son verilməsinə baxmayaraq, hələ də ənənəvi – marjinalist baxışların təsir gücü yüksək olaraq qalmaqdadır. Əsaslandırıma tipinin, qeyd etdiyimiz "köhnəliyə" istinadı bu gün də geniş yayılmışdır.

"... Universitetlərin böyük əksəriyyətində iqtisadi nəzəriyyə adı altında tədris olunan şey – həqiqətdə onun inkarıdır" [6,səh.221]. Yəni, marjinalist – neoklassik çərçivədən kənara çıxış yalnışlıqdır və iqtisadiyyatın elmi statusunu şübhə altına salır. Amma..., bununla bahəm, heç şübhə yoxdur ki, "kənara çıxış"olmadan iqtisadi davranış modellərinin rasionallıq tutumunu anlamaq mümkün deyildir. Davranışın rasionallığı problemi – çağdaş durumda iqtisadi nəzəriyyənin əsas problemidir. Bu problemlə bağlı birmənalılığa nail olmadan gerçəkliyin nəzəri təsvirinin adekvatlığı mümkün deyildir.

Apardığımız nəzəri – konseptual araşdırmaların əsas hədəfi sözügedən birmənalılığın aşkarlanmasıından ibarətdir.

Və, tədqiqatın gedişindən də görünəcəyi kimi, iqtisadi davranış rasionallıq cütlüyünün problemli təzahürünün aradan qaldırılması iqtisadi elminin "təkbaşına" görə biləcəyi bir iş deyildir.

**İqtisadi davranış: məqsəd "yeganəliyi" problemi**

İqtisadi davranışla bağlı elmi fikirdə hakim mövqe bundan ibarətdir ki, iqtsiadi sferada aparılan tədqiqatlar – birmənalı olaraq iqtisadi – davranış tərzinin öyrənilməsi və proqnozlaşdırılmasına yönəlmişdir [25,səh.92].

L. Robbinsonun, [11,səh.18] keçən əsrin I yarısında bəyan etdiyi fikir – "iqtisad elmi seçim haqqında elmdir" – klassiklərdən qalma mental təsəvvürlərin alt – üst edilməsində mühüm rol oynamış və bu gün də elmi metodologiyanın yanaşma tərzi kimi üstün mövqeyini saxlamaqdadır.

İqtisad elminin – iqtisadi davranışla bağlı apardığı qiymətləndirmə seçim konteksti daşıyır: qıt resurslardan istifadənin, eləcə də fəaliyyətin təşkili (resurslar) metodları və sərvətin bölgüsü üsulları kontekstində alternativ variantların seçilməsi prosesi tədqiq olunur. Və, bunun üçün də iqtisadi azadlıqlar, ələlxüsus seçim azadlığı təşəkkül tapmalıdır və s. Situasiya elə təsvir edilir ki, elə bil iqtisadi subyektlər qarşısında çoxlu alternativlər mövcuddur və bu variantların istənilən biri sərbəst şəkildə seçilə və tətbiq oluna bilər. İqtisadi gerçəkliyin yalnış yaxud qeyri – adekvat təsviri və şərhinin ortalığa qoyduğu ziddiyyətli məqamlardan biri məhz budur.

Belə ki, real gerçəklikdə, xüsusilə də sosio – iqtisadi inkişaf səviyyəsi yetərli olmayan, etatist yanaşmaların yer aldığı iqtisadiyyatlarda E.Frommun gəldiyi qənaət əlahiddə rol oynayır: Azadlıqdan qaçma və konformizmin əsas fəaliyyət prinsipinə çevrilməsi! Başqa sözlə, "hamı necə, mən də elə" fəlsəfəsi!Digər tərəfdən, azad təsərrüfatçılıq (?) şəraitində sözügedən seçimin – konkret situasiyadan asılı olaraq – üç əsas hədəfi ola bilər: Optimal nəticəyə yönəlmə; Faydanın maksimumlaşdırılması; "Sağqalmaq" problemi; Söz yoxdur ki, seçim prosesində sıradakı üçüncü hədəflə bağlı problem olmadıqda digər variantlara baxıla bilər. Məsələn, müxtəlif miqyaslı resessiya yaxud böhran situasiyalarında davranışın yönəldiyi əsas hədəf "sağqalmaq" problemidir.

Və, belə vəziyyətlərdə - məntiqi zərurətlə baş verən müflisləşmə - bir qayda olaraq, iqtisadi davranışın qeyri – adekvatlığından yaxud yalnış variant seçimindən qaynaqlnır. Yəni, iqtisadi davranış – dəyişən situasiyalara adekvat şəkildə həm məzmun, həm də formaca dəyişikliyə uyğrayır: Davranışda sabitlik – çox qısa bir zaman intervalında mövcud ola bilər. Həmçinin, elmi fikirdə müşahidə edilən bir meyl – iqtisadi davranışı nəzəri – konseptual məzmunlu standart "qəlibə" salma cəhdləri bəri – başdan uğursuzluğa məhkumdur. Ən yaxşı halda, heç bir praqmatik əhəmiyyəti olmayan yaxud reallaşma mexanizmi mümkünsüz olan davranış modelinin nəzəri konstruktsiyası qurula bilər. Başqa sözlə, "gerçək" davranışla "nəzəri" davranış kimi bir mənasızlıq meydana çıxacaqdır.

İqtisadi davranışın vahid definisiyası yoxdur. İqtisadi davranış: "Mənfəətin maksimumuna yönəlmiş məqsədyönlü seçim variantıdır" [15,səh.46]. "... Daha faydalı olan alternativlərin seçimidir" [22,səh.98]. "…Sosial hərəkət sistemi olmaqla, iqtisadi resurslardan istifadə və onların dövriyyəsindən mənfəət əldə etməyə yönəlmişdir" [2,səh.120].

Söz yox ki, iqtisdi davranışın əsas hədəfi müsbət işarəli effektivliyə nail olmaqdan ibarətdir. Zatən, olayı bir yozum mümkünsüzdür. Nəticə müsbət olmursa, fəaliyyət – nəinki mənasızlaşır, hətta zərərlə müşahidə olunur. Amma, müsbət effektin (faydanın, mənfəətin və s.) maksimumuna yönəlik davranış – daha çox istisna xarakterlidir. Bu anlamda, neoliberal maksimalizmi qabartmaqla, ona, yalnız ona yönəlik davranış modelini qiymətləndirməyə istiqamətlənmiş elmi tədqiqatın gələcəyi qənaət – yanılmadan qeyri bir məna kəsb etməyəcəkdir. Ona görə ki, əvvəla, iqtisadi davranışın hədəfində bir yox, üç "maksima" ola bilər: maksimum mənfəət; "maksimum hakimiyyət (inhisarçı mövqe); maksimum istehlak; ikincisi, davranış – həm də, təsadüflərə, gözlənilməzliklərə, müxtəlif hadisə və proseslərə verilən reaksiyala-

rın rezervuardır. Verilmiş qərarın tətbiqi prosesindən kənarda baş verənlərlə də “məşğul” olmaq məcburiyyətindədir.

Və, bu “məcburiyyətdə” əsas hədəf deyə biləcək zərərin qarısını almaq yaxud “sağqalmağa” çalışmaq kimi hər hansı bir maksimumdan uzaq nəticə çıxış edir (əksər hallarda).

Üçüncüsü, iqtisadi davranış – “iqtisadi” anlamda xalislik keyfiyyətinə sahib deyildir. İqtisadi davranış – sosial hərəkətin iqtisadi fəaliyyət sferasında təmərgüzləşmiş təzahür forması olmaqla, cəmiyyət həyatının bütün spektrinin proyeksiyası altınaddır. İqtisadi davranışın, həm siyasi – hüquqi, sosial – mədəni, əxlaqi – etik, hətta milli identikliyi yüksək olan cəmiyyətlərdə milli – mental və dini sərhədləri belə mövcud olur.

Göründüyü kimi, iqtisadi davranış – ümümqəbul edilmiş yanaşmalarda iddia edildiyi kimi, funksional fəaliyyət göstərən subyektin “mütləq” nəzarəti altında deyildir. Fəaliyyət və seçim sərbəstliyinin (azadlığının) qərarlaşmış səviyyəsindən asılı olmayaraq, iqtisadi davranışı, sözün müəyyən anlamında, məhdudlaşdıran amillər çoxluğu mövcuddur. Fəaliyyət göstərən subyektin həm formal, həm də qeyri – formal institutlardan asılılığı qərar qəbulu prosesində qabarıq şəkildə təzahür edir.

Beləliklə, iqtisadi davranış – sərhədlidir, hüdudludur, gerçəkliyin mahiyyət çalarları ilə determinə olunur.

**Davranışın şərhetmə modelləri: konseptual yetərsizlik**

İqtisadi davranışın nəzəri – konseptual və metodoloji kontekstdə aktuallaşmasını, bir tərəfdən sosio – iqtisadi gerçəklikdə baş verən dəyişikliyin tezlik dərəcəsəinin yüksəlməsi, ki prosesdə yaranan informasiya çoxluğunun təfəkkür üzərində pressinqinin güclənməsi baş verir, digər tərəfdən effektivlik → rifah ikiliyinin qarşılıqlı bağlılığında təzahür edən fəsadlı situasiyaların çoxalması ilə əsaslandırmaq olar.

Məlumdur ki, iqtisadi davranışın və bütövlükdə iqtisadi reallığın adekvat qiymətləndirilməsi prosesi təsvir → şərhetmə → anlama üçlüyünün “davranış” tərzindən, yən həqiqi olanın düzgün təsbiti, həm də üçlükarası keçidin rəvanlığı, mənatutumunun ziddiyyətsizliyindən bir – başa asılılıqdadır. Əsas metodoloji problemlərdən biri məhz ondan ibarətdir ki, funksional fəaliyyətdə prosesin mənatutumu yalnız nəticədə ortalığa çıxır. Və, prosesin gedişində onun sabit qalıb/qalmayacağını yaxud məna “çoxluğuna” çevrilməyəcəyini öncədən görmək/anlamaq mümkün deyildir. Bu aspektlə bağlı, əvvəlki tədqiqatlarımızda qeyd etmişdik ki: “... Məqsəd – subyektiv şəkildə müəyyənləşdirilən, məna isə atributlaşmış aspektdə formalaşandır. Buna görə də, eyniyyətin, üst – üstə düşmənin...” labüd olmaqlıq” [1,səh.57] kimi səciyyələnidirilməsini yalnış hesab edirik.

Məhz bu aspektdən neopozitivizmə istinad edən naturalist model (deduktiv – nomoloji) iqtisadi davranışın şərhi nöqteyi – nəzərindən yararsızdır. Verifikasiyadan keçməyən deduktiv əqli – nəticənin “mütləqləşdirilməsi”ni həqiqət keyfiyyətində ortalığa qoyur: “X” situasiyasında olan subyekt “Y” – i həyata keçirir” [4] **,**subyekt “qatı” rasionaldır və bu yönümdə, heç bir halda “solaxoy” gedişlərə rəvac vermir.

Digər tərəfdən, gerçək iqtisadi davranış (onun nəzəri obrazı yox) formal məntiqin çərçivəsinə sığacaq qədər sadə/primitiv, təbiətşünaslığın metodoloji üsulları ilə dərk edilə biləcək qədər “təbiət” hadisəsi deyildir. İqtisadi hərəkətin – istənilən təzahür formasının subyekt müəyyənliyi mövcuddur. Yəni , iqtisadi hərəkətin “ağlı” vardır. Yaxud, iqtisadiyyatda “obyektivlik” – təbiətşünaslığın analoji anlayışından əsaslı surətdə fərqlənir: İqtisadi “obyektivlik” - əslində subyektiv məzmunludur.

Eyni zamanda, məlumdur ki, qərar qəbulu prosesinə iki aspektdən yanaşma – normativ və təsvirçi (deksriptiv) – daha çox populyardır. Normativ baxışda – rasional qərarın alqoritmlərinin axtarışı, deskriptiv yanaşmada isə yalnışlığa “təhrik” edən sosial və psixoloji amillərin aşkarlanması yolu ilə qərar qəbulu prosesinin gerçəkçi təsviri əsas hesab olunur. Birinci – halda, subyektivizmin qabarıq nümayişi (metodologiyada) fonunda qərarların tətbiqi və seçim vasitəsilə hədəflənən məqsədə çatma imkanlarının əsaslandırılmasına cəhd edilir. İkinci halda isə, təbiətşünaslığın naturalist modelindən çıxış etməklə subyektin imkanlarının məhdudluğu ortalığa qoyulur.

Real gerçəklikdə isə hər iki yanaşma sıx qarşılıqlı bağlılıqda təzahür edir.

Yaxud, yuxarıda qeyd etdiimiz yanaşmalar – istənilən situasiyada nisbi səciyyə daşıyır: daha çox nəzəri təsvir və şərhetmə prizmasından çıxış edirlər.

Məlumdur ki, qərar qəbulu prosesi – çoxsaylı dəyişənlərin birbaşa təsiri altında olur. Bu nöqteyi- nəzərdən, hansısa bir konfiqurasiyada standart nəzəri baxışın formalaşdırılması, həm kifayətqədər müşkül problemdir, həm də elə bir praqmatik əhəmiyyət kəsb etmir. Təbii ki, oxşar yaxud eyni ilə təkrarlanan situasiyalarda qərar qəbulunun bir proses olaraq “oxşar” məzmun daşıması ehtimalı yüksəkdir. Amma, bu halda da belə, sözügedən prosesə standart nəzəri baxış bucağından yanaşmaya lüzum yoxdur. Belə ki, müasir dövr – iqtisadi situasiyanın həm struktur, həm də mahiyyətcə intensiv şəkildə dəyiş-diyi/yeniləşdiyi bir dövrdür.




***Şəkil 2. İqtisadi davranışı şərhetmə modellərinin məzmun fərqliliyi***

Bu aspekt mezo – makro səviyyələr üçün xüsusi əhəmiyyət kəsb edir. Bütün bunları nəzərə almaqla, hesab edirik ki, qərar qəbulu prosesinin nəzəri “obrazı” yalnız və yanız situativ səciyyəli ola bilər. Həmçinin, sözügedən prosesin rasional tutumuna da konkret situasiyanın mahiyyət çalarlarından çıxış etməklə baxılmalıdır. Yəni, hər hansısa bir formada standart-dan/universallıqdan bəhs etməyin yeri yoxdur.

Sxemdə əks etdirilmiş digər şərhetmə modelləri də sistemlilikdən xalidirlər. (bax.şək.2)

Belə ki, davranışın “məqsədli” (normativliyin əsas kimi götürülməsi) şərhi yaxud “təsadüfə” istinadla aparılan şərh, eləcə də “gizli” qalan mənanı aşkarlamaq istəyi – gerçəkliyin sistemli təsvirini vermək istidarında deyildirlər. Semantik və elmi şərhin sintezinə istinadla verilən şərh – interpretasiya - müqayisəli şəkildə daha üstün durumdadır. Amma..., interpretativ model – şərh

prosesində funskional və struktur asılıqlardan çıxış etsə də, səbəbiyyət asılılığını əhəmiyyətli hesab etmir.

Heç şübhəsiz, istənilən situasiyada gerçəkliyin "gerçək" mahiyyətini formalaşdıran "yaradıcı" mexanizmlər üçlü (səbəbiyyət, struktur, funksional) bağlılıq və qarşılıqlı təsirdən qaynaqlnır. Səbəbiyyətin inkarı – nəinki gerçəkliyin həqiqi təsvirini mümkünsüz hala gətirir, yaranmış situasiyanın ekzistensial aspektdən şərhini də imkansız edir.

**Neoklassik iqtisadi davranışın təməl prinsipi: rasionalizm**

Rasionalizmin iqtisadi təzahür forması – dəyərtutumu nöqteyi – nəzərindən "xalis" iqtisaidyyatın çərçivəsinə sığmır. İqtisadi təfəkkürün – ictimai həyatın bütün spektri üzrə - mərkəzi mövqeyə keçməsi (qiymətləndirmə rakursundan) paralel olaraq, iqtisadi rasionalizmin "ümumiləşdirici" davranış xətti kimi ön plana çıxmasına səbəb oldu.

İqtisadi rasionalizmin ictimai həyata təsiri qarşılıqlı münasibətlərin, birmənalı şəkildə fayda → zərər ikiliyi üzərinə sistemli keçidinə gətirib çıxardı ki, bu da kumulyativ effekt verməklə "iqtisadi"nin rasional sərhədləri aşmasına, "metafizik" [8] kateqoriyaya çevrilməsinə səbəb oldu. Başqa sözlə, "iqtisadi insanla" real insan arasında "uçurum" meydana çıxdı.

Fayda →zərər dixotomiyası cəmiyyətin həyatının mənasına çevrildi.

"Xalis iqtisadi zəkanın" – sosio – mədəni kontekstə keçirilməsi probleminin aktuallığı yüksəlməkdə davam edir [14].

Bir sıra tədqiqatlarda rasionalizmin şərh variantlarının sayı 21-ə çatır [5].

Rasionalizm nədir? sualına müxtəlif sosial elmlərin cavabı:

1) Fəlsəfə [16] - ətraf aləmdə baş verən hadisələrin, şeylərin təbiətini, onların yaranma qanunları, hərəkət və inkişafını qiymətləndirən nəzəri bilikdir; Bu populyar olan yanaşmadır. Əslində, fəlsəfədə rasionalizmin vahid konsepsiyası yoxdur;

2) Sosiologiya [13] – ümumcəmiyyət miqyasında qəbul edilmiş normalara, sağlam tələbat idealına uyğun şəkildə həyata keçirilən fəaliyyətin xarakteristikasıdır.

3) Psixologiya [23] – rəyin hazırlanması prosesinin məntiqi təşkili; Rasionallıq – anlaşılanlıqdır, yalnız şəxsi davranışının motivlərini anlayan insan – rasionaldır. İqtisadi psixologiya – rasionallıqdan kənarlaşmaları şərh etməyə çalışır.

Perspektivlər nəzəriyyəsi (D.Kaneman və b.) iddia edir ki, insanlar daha çox "əsaslandırmaya" (optimallıqla müqayisədə) diqqət yetirirlər...", "... seçim prosesi konstruktiv və situasiyalı xarakter daşıyır" və s.

öründüyü kimi, problemə situativ yanaşmanın zəruriliyi psixoloji anlamda da eyni məzmun daşıyır.

Həqiqətən də, iqtisadi proses yaxud proseslər çoxluğu "kütləvi" yeniləşməyə məruz qalmır. Proseslərin böyük əksəriyyətində subyektin davranışını formalaşdıranlar daha çox təkrarlanmalar şəklində təzahür edirlər. Yəni, əvvəlki təcrübəyə əsaslanmaq, əgər situasiyada əhəmiyyətli dəyişiklik baş verməyibsə, daha populyar olan yanaşmadır. Buna görə də, "ənənəviçiliyi" – əslində iqtisadi davranışın substansiyası keyfiyyətində qəbul etmək gərəkir.

Digər tərəfdən, dəfələrlə təkrarlanan "əvvəlki təcrübə" – həmişə müsbət effektlə sonuclanıbsa, deməli – mahiyyətcə - rasionaldır: faydanın maksimumlaşdırılması aspektindən deyil, müsbət nəticəlilik prizmasından rasional səciyyə daşıyır. Və, elə Q. Saymonun konseptual yanaşması da bu nüansın üzərində qurulmuşdur.

İlk dəfə, məhz Q. Saymon qeyd etmişdir ki, insanın koqnitiv imkanları prinsipcə, məhduddur. Onun "məhdud rasionalizm" konsepsiyasında iki anlayış yer almışdır: 1) Effektiv davranış: yəni, konkret müsbət işarəli nəticəyə yönəlik; 2) Maksimumlaşdırma yönümlü davranış; Eyni zamanda, Q. Saymon maksimalizmin yerinə "kafi nəticələr" konsepsiyasını irəli sürmüşdür. Sxemdə də, əks edildiyi kimi, prosedurun rasionallığını, Saymon konseptual olaraq formalaşdırmışdır: iqtisad elmi insanların məqsədlərinin rasionallığı ilə deyil, məqsədlərə çatmanın rasionallığı ilə maraqlanır".

Problemin dərketmə diskomfortunu yüksəldən şey – elə yuxarıda qeyd etdiyimiz fərqləndirmə və onun ziddiyyətli ifadə tərzidir.

Belə ki, iqtisadi subyektin məqsədi rasional deyilsə, artıq ona "çatmanın rasionallığı" deyilən bir şey qalmır. Başqa sözlə, iqtisad elmini

– növbəti dəfə - “xalislik” tələsinə çəkmək meyli müşahidə olunur. Axı, məqsədin təsbiti – iqtisadi subyektin davranışında rasionallığın olub/olmayacağını bəri - başdan qiymətləndirmək imkanı verir. Digər tərəfdən, məqsəd – real fəaliyyətin mahiyyət çalarları ilə determinə olunandır, yəni konkretdir, konkret mənatutumu mövcuddur və bu məna gerçəkci situasiyada subyektin mövqeyi ilə bağlılıqda formalaşır. Buna görə də, həm məqsədin rasionallığı, həm də məqsədə aparan yolun rasionallığı iqtisad elminin diqqət mərkəzində olmalıdır.

Hələ, keçən əsrin 70 – ci illərində Q. Xofstedin [26] apardığı araşdırmaları belə bir qənaəti ortalığa qoydu ki, cəmiyyətdə rifah halının yüksəlişində əsas rolu qərarlaşmış sosial sistem və onun istinad etdiyi parametrlər oynayır: Fərdlik/kollektivlik; qeyri – müəyyənliyi qəbul etmə/qəbul etməmə; hakimiyyət – güclü/zəif.

Tədqiqatın empirik yekunlarına görə, individualizm – daha çox “rifah yaratma” potensialına malikdir. Təbii ki, industrial təsərrüfat tipinin yetkin səviyyəyə çatdığı bir dövrdə (1970-ci illər) fərqli nəticə ola bilməzdi. Amma... 50 illik bir zaman kəsiyində baş verən dəyişikliklər, o cümlədən individiumun virtuallaşması – Q. Xofstedin gəldiyi qənaətin uzunmüddətli dövr ərzində hansı problemlərə səbəb olduğunu əyani şəkildə nümayiş etdirməkdədir. Başqa sözlə, fərdin “mütləq”ləşdirilməsi – eqoizmin sistemli hərəkətinə “yaşıl işıq” yandırılmasına və qısamüddətli dövrdə faydanın maksimumlaşdırılmasına təkan verə bilir və əslində, verir də! Lakin, sosium ümumiliyindən kənarlaşan, əlahiddələşən individium dayanıqlı sosio – iqtisadi sistem qurma potensialına sahib deyildir. Təsvir etdiyimiz prosesdə individium – iqtisadi rasionalizmin “əsiri” – sosial bütövləşməyə doğru deyil, aramsız olaraq təkcələrə bölünmə istiqamətində “yeniləşməyə” uğrayır.

**Rasional seçim... azadlığı.**

İqtisadi azadlıq – birdəfəlik akt deyil, daima dinamikada olan prosesdir. Yəni, bu fenomenə son məqsəd prizmasından yanaşmaq, hansısa bir formada praqmatik əhəmiyyət kəsb etmir. İqtisad azadlıq – iqtisadi prosesin həm kənar müdaxilələr (oxu: məhdudiyyətlər) olmadan gedişi, həm də subyektin (prosesin “sahibi”) təkcə fəaliyyət deyil, həmçinin seçim və iradə azadlığını da ehtiva etməsidir. Problemə yanaşma tərzini ideallaşdırdığımızın fərqindəyik. Lakin... o da şübhəsizdir ki, azadlıq fenomeni – qərarlaşma prizmasından – yalnız ideal situasiya ilə müqayisə edilməklə qiymətləndirilməsi mümkündür. İqtisadi azadlıq – canatanın, onu istəyinin nail ola biləcəyi bir nemətdir: azadlığın... axtarış azadlığı – gerçək olan məhz budur.

Poststrukturalist fəlsəfə çox doğru olaraq qeyd edir ki, “... insan azadlığı... heç bir dönəmdə onun qarantiyası funksiyasını daşıyan institutlar yaxud qanunlar tərəfindən təmin edilməmişdir [17,səh.222]. Bu aspektdən iqtisadi davranış kontekstində - əsasən və başlıca olaraq qərar qəbulu prosesində rasional seçim imkanlarını yalnız seçim azadlığı ilə bağlamaq – problemə birölçülü məntiqlə yanaşmaq deməkdir. Rasional seçim çoxölçülüdür. Azadlıq – təkcə seçimdə deyil, konkret situasiyanın bütün təfərrüatında gerçəkləşmə imkanına malik olmalıdır.

Yəni, həm makro, mezo və mikroiqtisadi səviyyələtdə, həm də cəmiyyətin sosio – iqtisadi və sosio – mədəni tiplərinin adekvatlığı kontekstində yer almalıdır. Əks – təqdirdə, fenomenin reallaşma potensiyasının sistemli təzahürü mümkünsüz hala gələ bilər ki, bu halda da alınacaq nəticə imitasiya səciyyəsi daşıyacaqdır.

Digər tərəfdən seçim azadlığı - əvvəlki araşdırmalarımızda da qeyd etdiyimiz kimi, birmənalı səciyyə daşımır. Subyekt üçün əsas olan nədir? sualına münasibət paradoksal məzmunun mövcudluğunu aşkara çıxarır: Azadlıq/təhlükəsizlik yaxud azadlıq/rifah yaxud azadlıq /ədalətlilik tipli ziddiyyətlərlə qarşılaşırıq. Şübhə yoxdur ki, ikincilər – azadlıqdan daha mühüm əhəmiyyət kəsb edirlər. Buna görə də, seçim azadlığı – həmişə və kütləvi olaraq konformizmi kimi təzahür edir. Eyni zamanda, sübut etməyə ehtiyac yoxdur ki, azadlıq konseptinin meydana çıxmasının əsas əsbəbi də elə həmin “ikincilərin” (təhlükəsizlik, ədalət, rifah) problemliliyidir ( qərarlaşma nöqteyi-nəzərindən).

Azadlıq – insana məhz həmin “ikincilərə” nail olmaq üçün gərəkdir. Məhz buna görə, azadlıq- insan varlığının (bütün təzahür formaları əhatə olunmaqla) mövcudluğu və inkişafının fundamental əsası kimi çıxış edir.

Azadlıq – birgə yaşayış qaydalarının (oxu:sistemin) keyfiyyət xarakteristikasıdır. Yəni, bu prizmadan individ → sosium ikiliyini "parçalamağa", azadlığı (xüsusən, iqtisadi) "rasional eqoistin" sərəncamına (əlahiddəlik prizmasından) verməyə lüzum yoxdur yaxud bu halda insanın istədikləri (təhlükəsizlik, ədalət, rifah) gerçəkləşə bilməz.

İqtisadi davranışın rasionallığı problematikasının sosio – fəlsəfi interpretasiyası çərçivəsində K. Popperin konseptual baxışı daha çox sistemliyi ilə nəzər – diqqəti cəlb edir. K.Popperin [9] liberal konsepsiyası rasional seçim prosedurunu – çoxölçülü məzmun və struktura malik olan və sosio – mədəni kontekstdə "reallaşan" proses kimi təqdim edir. Konsepsiyanın əsas məzmununu aşağıdakı kimi sıralamaq olar:

- Rasionalizmin ali kriteriyası yoxdur: rasionalizm – individual deyil, intersubyektiv çalarlıdır;
- Rasionalizm – kommunikasiyanın rasionallığından qaynaqlanır;
- Rasional seçim proseduru – utilitar mənafelərə və instrumental (formal) rasionalizmə istinad etməməlidir;
- Azadlıqları qoruyan institutsional konstruktsiyanın və oturuşmuş ənənələrin fəaliyyət göstərdiyi mühitdə çoxsaylı subyektlərin "rəqabətli" dialoqu (daimi olaraq aparılan) qarşılıqlı anlamanın rasionallığını tam şəkildə təmin edir;
- Rasional yanaşma – nə əvvəlki təcrübədən, nə də arqumentlərdən ( o cümlədən, məntiqi) deyil, inam aktindan, zəkaya olan inamdan "doğur".
- "Praqmatik rasionalizm" – rasional iqtisadi davranışın əsas təzahür formasıdır. Göründüyü kimi, "xalis" iqtisadi interpretasiyada əsas istinad nöqtəsi keyfiyyətində götürülən rasionalizm → maksimum effekt və onun individual təzahürünü postpozitivizmin banisi K. Popper arxa plana keçirir.

Rasionalizmə kriterial yanaşma inkar olunur: formal rasionalizm – çılpaq abstraktsiyadan başqa bir anlam kəsb edir. Xüsusi diqqət çəkən məqam ondan ibraətdir ki: əvvəla, rasional davranışın kommunikasiyanın xarakterindən asılılığı ön plana çıxarılır: "kommunikasiyanın rasionallığı" anlamında; ikincisi "rəqabətli" dialoq – kommunikasiyanın yaxud qarşılıqlı anlamanın rasonallığını təmin edən əsas vasitə kimi səciyyələndirilir;

Və, nəhayət üçüncüsü, rasional davranışın inamdan qaynaqlandığı qeyd olunur. Söz yox ki, K.Popperin rasionalizmə konseptual baxışı "açıq cəmiyyət" nəzəriyyəsi çərçivəsindədir. Bu baxışların iqtisadi proyeksiyası, müəllifin özünün də qeyd etdiyi kimi, yalnız və yalnız praqmatik müstəvidə gerçəkləşə bilər. Və, daha çox fenomenin sosial təbiətini anlamaq prizmasından müəyyən əhəmiyyət kəsb edir.

Problemə neoliberal baxışın təməl müddəaları F.Xayekin [19] "üzvi rasionallıq" konsepsiyasında təkamülçü paradiqma çərçivəsində aparılır:

- İnsan davranışının ənənəvi qaydaları – müstəqil fenomendir, yəni nə zəkanın, nə də instinktin "yaratdığı" deyildir; Ənənəvi olan – "instinkt və zəka arasında" yer tutur və zəkanın inkişafı ilə dəyişikliyə məruz qalır;
- Davranış qaydalarının mənimsənilməsi – intuisiya, zəka və anlamanın nəticəsindən daha çox mənbə kimi çıxış edir;
- Davranışın rasionallıq dərəcəsi heç də həmişə anlaşıqlı olmur: " ...Biz bəzən nə etdiyimizi və niyə etdiyimizi bilmirik" [19].
- İqtisadi davranışın rasionallığını... individual zəkadan daha çox sosial institutlar və davranış qaydaları müəyyənləşdirir;
- Kriterial rasionalizm inkar olunur... Səbəb... rasional və qeyri – rasionalın fərqləndirilməsini reallaşdıra biləcək universal əsaslandırmanın mümkünsüzlüyüdür;
- Və, nəhayət... "ənənə - müəyyən mənada individual zəkadan üstündür və daha "müdrikdir" [19].

F.Xayekin konseptual baxışında ziddiyyətli məqamlar açıq – aydın şəkildə müşahidə edilməkdədir. Əslində, anlaşılandır (ziddiyyətlər)... belə ki, neoliberalizmin sosio – iqtsiadi təbiətinə xas olanlar sırasındadır:

- Rasionallıq – anlaşılanlıqdır. Təfəkkürün doğurduğudur. Təfəkkür ... "anlaşıqlı olmayanı" doğura bilməz. Əgər, "... bəzən nə etdiyimizi və niyə etdiyimizi bilmiriksə", onda həmin "nə isə"nin rasionallığa heç bir aidiyyəti olmur.

-Ənənə- şüurlu elementin yaxud zəkanın formalaşdırdığı, qayda və normalar, prinsiplər sistemidir. İnstinkt - ənənə doğura bilməz. İnstinkt

– hər hansı qıcığa verilən ibtidai formalı reaksiyadır: fraqmental, epizodik səciyyə daşıyır. Sistemyaratma qabiliyyətində deyildir. Ənənə - insan varlığının tarixi substansiyası olmaqla, sistemli yaranışdır.

Sadəcə olaraq, yeniləşmə meylliliyi hissedilməyəcək dərəcədə aşağı səviyyəlidir. Bir sözlə, ənənə - instinkt və zəka arasında “müstəqil fenomen” deyildir yaxud zəkanın formalaşdırığı “müstəqil fenomendir”. Amma, ənənənin individual zəkadan daha “müdrik” olması doğru təsbitdir. Ona görə ki, ənənə - intersubyekt səviyyəlidir.

-Davranışın rasionallığını təmin edən şey – individual hərəkətdir. Sosial institutlar – iqtisadi prosesdə “iştirak” edirlər, amma prosesin subyekti deyildirlər. Davranış qaydalarının sosial standartı (əgər, belə ifadə caizsə) – prosesdə əhəmiyyətli rol oynayır, lakin, o da subyekt keyfiyyətində çıxış etmir. Yəni, rasionallığın təminatının son instansiyası – iqtisadi subyektin zəkasıdır. (oxu:təfəkkür) və s. Göründüyü kimi, fenomenə baxış bucağı subyekt → mühit ikiliyi çərçivəsində (ikincinin prioritetliyi qorumaqla) şərh edilir. Elə bu “ikiliyi”qeyd etmək kifayətdir ki, yanaşma tərzində abstraktsiyanın aşırı səviyyədə olduğunu görə biləsən. Eyni zamanda, qeyd etmək lazımdır ki, dərketmə diskomfortu doğuran əsas problemlərdən biri rasionalizmin “genişlənən bazar qaydaları” konsepsiyası bazasında təsviridir. Neoliberalizm üçün “bazar qaydaları” sakral məzmun daşıyır. Məlumdur ki, sözügedən konsepsiya “iqtisadi mərkəzçiliyin” əsas konstruktsiyasıdır.

Daha yığcam ifadə: inkişaf prosesi, o cümlədən həmin prosesin yüksələn xəttlə gedişini təmin edən rasional davranışın “kütləviləşməsi” bütövlükdə cəmiyyətin “bazarlaşması” dərəcəsindən proporsional asılılıqdadır. Rasionalizm – sırf iqtisadi fenoemen kimi nəzərdən keçirilir: onun sosial “standartları” eyniyyətə gətirilir və bu əsasda da əksər milli sosiumlar üçün “eyniyyətdə” olan “yeganə inkişaf yolu” tövsiyyə edilir. Yaranma mənbəyi nöqteyi – nəzərindən, heç şübhə yoxdur ki, rasionalizm – daha çox sosio – mədəni fenomendir. Onun iqtisadi proyeksiyasının mütləqləşdirilməsi (özü də “iqtisadi insan” modeli çərçivəsində), əsas olan statusunda şərhi hansısa bir formada praqmatik əhəmiyyət kəsb etmir.

Rasional seçim azadlığını məhdudlaşdıran, onun baş tutmasına əks – təsir göstərən əsas problemlərdən biri rasional davranış subyektinin özündən qaynaqlanan ziddiyyətli yanaşmadır. Söz yox ki, rasionallıq – sosial (o cümlədən, iqtisadi) davranışın universal keyfiyyət xarakteritikasıdır. Və, məntiqi konstruktsiya çərçivəsində “sübutu” mümkünsüzdür. Digər tərəfdən, bu və ya digər dərəcədə ümumqəbul edilmiş sosial standartları olur. Və, individual subyektin davranışındakı rasionallıq dərəcəsi, ilkin olaraq həmin standartlarda yer alan norma, qayda, prinsip və dəyərlərə uyğunluğu aspektindən qiymətləndirilir. Yəni, real subyekt – gerçək situasiyada rasionallığın ikili təzahürü ilə qarşılaşır: 1) Yuxarıda qeyd etdiyimiz “ standartlar” formasında normativ rasionallıq; ki, birmənalı olaraq kriteriyal ölçü proseduruna “biət” edir; 2) Diskursiv/formal rasionallıq; ilkin müqəddəm şərtlər də daxil olmaqla tənqidi- reflektiv yanaşma;

Tədqiqatçıların böyük əksəriyyəti qeyd etdiyimiz rasionallıq formaları arasındakı ziddiyyəti azad seçimin “faciəsi” adlandırırlar [10].

Blok-sxemdən göründüyü kimi (şək.4.) rasional seçim azadlığı çoxsaylı məhdudiyyyətlərin əhatəsindədir və onun gerçəkləşməsi mümkünlüyü barəsində müəyyən ehtimalla söhbət açmaq olar. Yəni, iqtisadi subyektin seçim azadlığı, nəzəriyyədə və ən çox da liberal interpretasiyalarda təsvir edildiyindənkəskin şəkildə fərqlənir. Əmək → kapital münasibətlərində baş verən kardinal yeniləşmə blok – sxemdə əks olunmuş məhdudiyyətlərin həm “davranış” tərzini daha da ziddiyyətli hala gətirir, həm də onların say çoxluğunu ortalığa qoymaqla yanaşı innovativ elementi dominant mövqeyə keçirir. Bu halda rasionallıq – formal olaraq hesablana bilən kəmiyyətə transfer edir, amma onun sosio – mədəni konteksti başlı – başına buraxılır. Və, bunun da müsbət effektivliyi ən yaxşı halda diskret səciyyə daşıyır.

### *Yekun müddəalar*

Rasionalizm → məqsəd və vasitələr arasındakı adekvatlıq dərəcəsi ilə ölçülür. Yəni, ayrıca götürülmüş bir təsərrüfat subyektinin rasionallığı – bütövlükdə sistemin rasionallığı ilə funksional bağlılıqdadır.

Rasional davranış – prosesdir:

1) İdeyanın formalaşdırılması;

2) Məqsəd;

3) Qərar qəbulu prosesi; Hədəflənən məqsədə çatma imkanı verən vasitələrin seçimi;

4) Məqsədə aparan yolun zamanca qısalığı ( reallığa adekvat şəkildə) və məsrəf tutumunun mümkün olan minimumu;

Rasionallığı – nəticə kimi şərh etmək yalnışdır. Nəticə (effekt: rasional prosesdən əldə edilən) səmərəlilik anlayışı ilə qiymətləndirilir. Yaxud, rasional prosesin effekti – bəzi hallarda (məs:fors-major) mənfi də ola bilər.Amma, bu "mənfilik" yaxud zərər rasional yanaşmanın olmadığına dəlalət etmit.

L.Lopes [24] qeyd edirdi ki, rasionalizmi effektin maksimumuna çatma istəyi ilə eyniləşdirmək yaxud şərh etmək yalnışlıqdır. Belə ki, müəyyən situasiyalarda yaxud subyektin seçdiyi məqsəd çoxluğundan asılı olaraq, rasionalizm fərqli məzmunda təzahür edə bilər:

1) Hər hansısa bir formada neqativ proses və hadisələrin (məs; fəlakət) qarşısının alınması;

2)Güdülən effektə münasibətdə zəmanətli minimum faydanın əldə edilməsi;

3) Fərdi mənafedən daha çox qrup, kollektiv, milli mənafelərin ödənilməsinə yönəlik fəaliyyəti və s.

Məhz, bu aspektdən rasionalizmlə bağlı standart baxışlar yaxud problemin standart formada həlli praqmatik əhəmiyyəti olmayanlar sırasına daxil edilməlidir.

Rasionalizm – iqtisadi davranışın substansiyası deyildir. Məlumdur ki, iqtisadi davranışda qeyri – rasional və irrasional elementlər bu və ya digər formada yer alırlar. Həm də, bütün səviyyələrdə ( individual, kollektiv, hökumət və s.).

Anlama problemini aktuallaşdıran əsas məsələ bir tərəfdən metodoloji yetərsizliklə bağlıdırsa, digər tərəfdən, rasional davranışın - əksər sferalarda (siyasi, sosial, mədəni və s.) fərqli məzmunda interpretasiya olunmasıdır. Yəni, anlayışın məntutumunun interpretativ şərhində vahidlik yoxdur.

Neoklassika rasionalist davranışın əsas hədəfi kimi mənfəətin maksimumlaşdırılmasını göstərir.

Amma... daha geniş aspektdən yanaşdıqda bu hədəfin çoxlu sayda problemli effektlərini görmək olar:

- Maksimum mənfəət – fəaliyyət sferasında çox saylı rəqibləri cəlb edən bir nəticədir. Bu halda rəqabət mübarizəsinə sərf edilən vəsaitin həcmi dəfələrlə artır. Lakin, sabit artım yönümlü strateji yanaşma əlavə vəsait sərfindən xilas olmağa imkan verir.

- Mənfəətin maksimumu – öncəki qərarların nəticəsi olmaqla araşdırılan dövrdə "indiki" davranışın rasionallığına dəlalət etmir. Yəni, sözügedən maksimumun hər bir situasiyada yenidən formalaşması zəruriliyi mövcuddur. Ondan çıxış etməklə iqtisadi subyektin yüksəlişə doğru hərəkət etdiyinin birmənalı qiymətləndirilməsi son dərəcə müşkül məsələdir. Yəni, maksimum – davranışın rasionallığının deyil, təsadüflərin "təsadüfi" kombinasiyasının verdiyi effekt də ola bilər. Həmçinin, mənfəətin maksimumuna can atma, fəaliyyət sferasının əsaslandırılmamış genişlənməsinə səbəb olur. Eyni zaman intervalında iqtisadi subyekt – ixtisaslaşdığı sfera ilə yanaşı, hətta hipotetik olaraq maksimum mənfəət əldə etməyə imkan verən digər sferalara müdaxilə edir. Və, nəticədə mənsub olduğu potensialı, o cümlədən qeyri – maddi aktivləri əsas fəaliyyət sferasından çıxarır ki, bu da yekun etibari ilə subyektin nataraz situasiyaya düşməsinə və proqnozlaşdırılmayan itkilərə gətirib çıxarır.

Beləliklə:

- İqtisadi davranış - formal və qeyri – formal institutların yaratdığı situasiyanın mahiyyət çalarlarından birbaşa asılılıqdadır. Yəni:

1) Subyektin iradə azadlığı məhdud çərçivədədir: hərəkətin rasionallıq tutumundan asılı olmayaraq o çərçivəni "aşmaq" mümkün deyildir yaxud öngörülməsi mümkün olmayan fəsadlara yol aça bilər;

2) Rasional subyekt ("iqtisadi insan") hər şeyi,hətta gələcəyin necə olacağını bilən, eləcə də cari situasiyanın spesifikası ilə yaxından tanış olan hansısa bir "dahi" deyildir. Rasional "insan" – nə etdiyini və nəyə nail olmaq istədiyini bilən insandır. Onun, iqtisadi nəzəriyyədən, ələlxüsus neoklassikadan heç xəbəri olmaya da bilər. Adətən, belə də olur. Funksional fəaliyyət sferasında subyekt öz "ağlı" ilə hərəkət edir. Yəni, istənilən formada təzahür edən iqtisadi hərəkətin "ağlı" var. Amma.., bu heç də o anlama gəlmir ki, həmin "ağıl" hər zaman "maksimuma" can atır.

3) Əgər, “iqtisadi insan” danışa bilsə idi, təxminən belə deyərdi: “ Hörmətli ortodokslar! Mənə - normal insani yaşayış lazımdır. İmkan verin insan kimi yaşayaq”.

- Rasional “sərhədlər” iqtisadi davranışın xaricindən deyil, daxilindən keçir. Ekzogen mühit – “iqtisadi insan”ın təsir göstərə biləcəyi yaxud dəyişə biləcəyi sistem deyildir. Və, onun nə vaxt, necə dəyişəcəyini də öngörmə bilməz; Bu anlamda “iqtisadi insan”ın rasionallığı ekzogen dəyişikliklərin funksiyası kimi çıxış edir; Hətta, həmin dəyişikliklərin təsiri yaxud “təhriki” altında “iqtisadi insan” nəzərdə tutmadıqlarını da reallaşdırmaq məcburiyyəti ilə üzləşir.
- Klassik və neoklassik interpretasiyada təqdim olan rasionallıq... həqiqətdə mövcud deyildir yaxud rasionallıq – iqtisadi davranışın əsas qaydası, əsas xarakteristikası deyil, istisnalar sinifinə aiddir.
- Rasional hərəkət – yekun nöqteyi – nəzərindən “kafi nəticələrlə” (Q.Saymon)yekunlaşan hərəkətdir. Effektin maksimumu da – iqtisadi davranış çərçivəsində - istisnalar sinifinə aiddir.
- İqtisadi davranışın adekvat təsviri və şərhini vermək üçün iqtisadi subyektin həm seçdiyi məqsədin (oxu: qərar qəbuletmə prosesi), həm də məqsədə çatma yolunun rasionallığı diqqət mərkəzində tutulmalıdır.

Beləliklə, rasional “romantizm” artıq tarixdə qalmışdır. Neoklassikanın “romantizmin” əsarətindən çıxmasına artıq heç nə maneə olmur...

## ƏDƏBİYYAT SİYAHISI:

1. Bayramov, Ə. İqtisad elminin fəlsəfi: zaman, həqiqət və azadlıq. Bakı.2016. s. 57
2. Верховин, В. Экономическое поведение как предмет социологического анализа// Социология. №10, 1994, стр.120
3. Вебер, М. Избранные произведения. М.1990
4. Гемпель, К. Мотивы и охватывающие законы в историческом объяснении// Философия и методология истории. М.1977
5. Ленк, Г. Типы и семантика рациональности.На.немц.языке. М. 1986
6. Мизес, Л. Социализм. Экономический и социологический анализ. М:1993
7. Мизес, Л. Человеческая деятельность. М:2000., с.221.
8. Осипова, Ю. Экономическая цивилизация и научная экономия// Экон. Теория на пороге XXI века. М;2000
9. Поппер, К. Открытое общество и его враги. Том.1;2. М:1992
10. Порус, В. Парадоксы научной рациональности и этики// Исторические типы рациональности. Т. 1. М:1995
11. Роббинс, Л. Предмет экономической науки// THESES.Т1,Вып.1.1993,стр.18
12. Саймон, Г. Рационалисть как процесс и продукт мышления// Thesis-1993: Т.1.Вып:3
13. Свиринов, Б. Социальная рациональность как компонент социальной перспективы// Социал. Исследования. 2003, №4
14. Семерник, С. Интерпретационный потенциал экономической рациональности в свете актуальных проблем современной социодинамики// Философия и права. 2015
15. Тамбовцев,В.Опыт эмпрического исследования экономического поведения// Вопросы экономики.№3,1994,стр.46
16. Философский энциклопедический словарь/ М:2002
17. Фуко, М. Пространство, знание и власть// интеллектуалы и власть. №3, М;2006, стр222
18. Хабермас, Ю. Теория коммуникатного действия// Вестник Москов. Универ. №4. 1993
19. Хайек, Ф. Пагубная самонадеянность. Ошибки социализма. М: 1992
20. Хюбнер, К. Критика научного разума. М. 1990
21. Швырев, В. О понятиях «открытой» и «закрытой» рациональности. М.1999
22. Эрроу, К. Информация и экономическое поведение// Вопросы экономики. №5, 1995, стр.98
23. Lopes, A. Science Rationality and inference/ 2004
24. Lopes,L.The Reasoning Vote.Chicago.1991
25. Hirchleifer, J. The Expanded Domain of Economics // Amer. Economiz Review. V.75.1985, p.92

26. Hofstede, G. Culture's Consequences: international differences in work related valued/ L/ 1980

**АВАЗ ИСЛАМ БАЙРАМОВ**
Д.э.н профессор, Азербайджа́нский госуда́рственный экономи́ческий университе́т

**Вугар Автандил БАЙРАМОВ**
Д.ф.э доцент, Баку, Мардакянский пр., 30 AZ 1045

## ЭКОНОМИЧЕСКАЯ ПОВЕДЕНИЕ: РАЦИОНАЛЬНЫЙ «РОМАНТИЗМ». АННОТАЦИЯ

### Резюме

**Цель исследование** - в теоретическом дискурсе отсуствует однозначность рациональноемкости в моделях экономического поведение. Основная цель в исследовании заключается в концептуально – теоретическом трактовке «однозначности» рациональной характеристики экономического поведения.

**Метод исследования** - Методическая база состоит из системно – структурных, системно – функциональных и вероятностно – дедуктивных методов.

**Результаты исследования** - полученные результаты не оставляет никакого сомнения в том, что для теоретического решения данной проблемы необходим отойти от «абсолютизации» чисто экономического подхода и использовать возможности (методологическом плане) межнаучного синтеза.

**Ключевые слова:** рационализм; иррационализм; поведение, дескрипция, польза, теория, модель.

**Avaz Islam BAYRAMOV**
Azerbaijan State University of Economics, Doctor of science in economics, professor

**Vuqar Avtandil BAYRAMOV**
Phd in economics, associate professor, National Aviation Academy

## ECONOMIC BEHAVIOR: RATIONAL "ROMANTISM"

### Abstract

**The purpose of the research-** in the theoretical discourse, there is no ambiguity of rational capacity in models of economic behavior. The main goal of the study is the conceptual-theoretical interpretation of the "identity" of the rational characteristic of economic behavior.

**The research method -** Methodological base consists of system-structural, system-functional and probabilistic-deductive methods.

**The results of the research are** he obtained results leave no doubt that for the theoretical solution of this problem it is necessary to move away from the "absolutization" of a purely economic approach and use the possibilities (methodological plan) of interdisciplinary synthesis.

**Key words:** rationalism; irrationalism; behavior, description, use, theory, model.